# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №06 (76) • 13.02.2012


AzadliqRadiosu.az


**«Der Spiegel» «Eurovision» qabağı insan haqları pozuntularından yazdı** səh.3

Rafiq Əliyev: **«Mən həqiqətən də fərariyəm»** səh.4

**İlham Əliyevin Münhen görüşünə reaksiyalar** səh.6

**"Mənə atəş açırlar"** səh.12

**Rəsmi nikah olmadan kəbin kəsilməyəcək** səh.14

**31 yaşlı azərbaycanlının icad etdiyi uçan aparat** səh.15


## Maraqlı videolar

- Nazirin yaşadığı evə bax, korrupsiyaya qiymət ver
- AZİNCO-nun kökləri hara gedib çıxır?..
- Küçədə yaşayan evsizlərə çadırlar gəlib çıxmadı

**www.AzadliqRadiosu.az**

# Misir milyardlarının Azərbaycana gələn izi



***Hüsnü Mübarəkin yaxın ətrafına bağlı çirkli pullar Azərbaycana necə yol tapıb?***

səh.9-10

## J.Appaturai: «İlham Əliyev NATO-nu əmin etdi ki...»

Azərbaycanda səfərdə olan NATO-nun Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi James Appaturai fevralın 10-da jurnalistlərə açıqlamasında bildirib: *«Azərbaycan-NATO əməkdaşlığı qarşılıqlı maraqlara cavab verir və bu məsələlərin müzakirəsi yaxın gələcəkdə davam etdiriləcək».*

səh.8

Dərin düşüncə





Bakı möcüzəsi: **476 mənzilli evin 579-cu mənzili...** səh.4

**Azərbaycan Ermənistana kömək təklif edir** səh.5

**Иран как головная боль президента Обамы** səh.7

**Hökumət evsizlərə sığınacaq qurduğunu deyir, amma...** səh.13

# Azərbaycan, yoxsa Şimali Azərbaycan Respublikası?

*AzadlıqRadiosunun «İşdən sonra» proqramında Milli Məclisin üzvləri Rasim Musabəyov, Zahid Oruc və politoloq Elxan Şahinoğlu Azərbaycanın adının dəyişdirilməsi ilə bağlı parlamentdə səslənən fikirlərə münasibət açıqlayıblar. Deputat Rasim Musabəyov deyib ki, bu məsələ Azərbaycanın bölünməsini gündəmə gətirmək üçün atılan addımdır:*


Rasim Musabəyov

«Düşünmürəm ki, bu təklifi irəli sürən deputatlar bilavasitə dövlətin adını dəyişdirməyi nəzərdə tutur. Sadəcə olaraq, İranda Türkmənçay müqaviləsi haqda cəfəng danışanlara anlatmaq istəyirlər ki, Azərbaycan gündəliyə Cənubi Azərbaycan məsələsini gətirəcək. Və bu çıxışlar əslində buna hesablanıb. Azərbaycanın adının dəyişdirilməsi üçün nə real təşəbbüs var, nə də bundan ehtiyatlanmaq lazımdır».

**«İDEYA YAXŞI İDEYADIR»**

*Deputat Zahid Oruc isə deyib ki, bu məsələ ilk dəfə deyil gündəmə gəlib. Onuz sözlərinə görə, Azərbaycan müstəqil respublika elan olunandan sonra müxtəlif dövrlərdə bu ideya dəfələrlə səslənib. Deputat hesab edir ki, dövlətin adının mütləq dəyişməsi hökm deyil. Onun fikrincə, bu ideyanın politoloji məkanda bərkiməsinə ehtiyac var:*

«Bu ideya ilə çıxış edən insanların başlıca hədəfi Azərbaycanın bölünməsinə işarə etməkdir. Heç də Azərbaycan Şimali Azərbaycan adlanmaqla bu gün bizim böyük mənfəətlərimiz, böyük faydalarımız dərhal baş verməyəcək. Daha artıq dərəcədə Azərbaycanın bir xalq kimi parçalanmaya məruz qaldığını dünyaya göstərməkdir. Və həqiqətən də Cənubi Azərbaycan amilini həqiqi mənada ifadə etməkdir».

*Politoloq Elxan Şahinoğlu isə deyib ki, parlamentdə çıxış edənlərin əksəriyyətinin bu ideyanı dəstəkləməsi onu bir qədər təəccübləndirib. Onun sözlərinə görə, belə bir təəssürat yaranıb ki, bu təklif səsləndirilməmişdən öncə deputatlar arasında bu barədə hər hansı fikir mübadiləsi olub. İdeyanın ortalığa atılmasına gəldikdə isə politoloq bunu uğurlu addım adlandırıb:*


Zahid Oruc

«İdeya yaxşı ideyadır. Bunu gündəmdə saxlamaq lazımdır. Bu o demək deyil ki, mütləq bu dəyişikliyə gediləcək. Bu həm də İranın Azərbaycanın işinə qarışmasına cavab aksiyasıdır. Bizim də haqqımızdır ki, öz dövlətimizin adı ətrafında müzakirələr açaq. Bu, İran hakimiyyətinin içərisində qıcıq yaradacaq. Bu, beynəlxalq aləmə də mesajdır ki, Azərbaycan iki hissəyə bölünüb. Məncə, Azərbaycan hökuməti bu məsələnin parlamentdə səslənməsində maraqlı olub. Amma düşünmürəm ki, Azərbaycan hökuməti bu ikinci addımı atmağa hazırdır. Yəni referendum yolu ilə ad dəyişmək».

**Verilişi tam olaraq AzadliqRadiosu.az saytında dinləmək olar.**

# "Eurovision-2012" üçün Bakıya gələnlərə viza qaydası sadələşdi

Bu ilin mayında Bakıda keçiriləcək "Eurovision-2012" müsabiqəsi üçün Bakıya gələn əcnəbilər vizalarını elə Bakı hava limanında ala biləcəklər. Amma bunun üçün "Eurovision-2012" mahnı müsabiqəsinin Təşkilat Komitəsi tərəfindən verilmiş rəsmi dəvət məktubu, yaxud Avropa Yayımları Birliyinin qaydalarına uyğun olaraq akkreditasiyadan keçmək, ya da müsabiqənin konsertində iştirak üçün bilet göstərmək lazım olacaq. Bu üç sənəddən biri Bakı hava limanında viza almağa bəs edəcək. Bu barədə prezident İlham Əliyev fevralın 10-da fərman imzalayıb. Sənəddə sadələşdirilmiş qaydada viza almaq istəyən xaricilər üçün müddətlər də nəzərdə tutulur: "Eurovision-2012" mahnı müsabiqəsinə gələnlər 2012-ci il aprelin 15-dən iyunun 1-dək belə viza üçün müraciət edə bilərlər.


Baku Crystall Hall

Avropa Yayımları Birliyinin qaydalarına görə, mahnı müsabiqəsinə qatılanlar 2012-ci il mayın 10-dan iyunun 1-dək müraciət etməlidirlər.

# Azərbaycan «Eurovision»a 63 mln. dollar ayırır




*Nazirlər Kabinetinin sərəncamı ilə 2012-ci ildə Azərbaycanda beynəlxalq və respublika səviyyəli tədbirlərin keçirilməsi üçün dövlət büdcəsindən 77 mln. manat ayrılacaq. Bu vəsaitin 50 mln. manatı (48.1 mln. avro) bu ilin may ayında Bakıda keçiriləcək «Eurovision-2012» Beynəlxalq Mahnı Müsabiqəsinin maliyyələşdirilməsinə sərf ediləcək.*

Sərəncama əsasən, beynəlxalq və respublika səviyyəli tədbirlərin keçirilməsi üçün Mədəniyyət və Turizm Nazirliyinə 5.4 mln., Diaspor üzrə Dövlət Komitəsinə 3.8 mln., İqtisadi İnkişaf Nazirliyinə 2.9 mln., Xarici İşlər Nazirliyinə 2.6 mln., Milli Məclisə 828 min manat ayrılır.

# «Der Spiegel» «Eurovision» qabağı insan haqları pozuntularından yazdı


Sökülən bina – 2011

**Almaniyanın «Der Spiegel» jurnalı Azərbaycanda «Eurovision-2012» mahnı müsabiqəsindən qabaq mülkiyyət hüquqları barədə məqalə dərc edib. Müəllif Stefan Niggemeier yazır ki, Azərbaycan hökuməti bu müsabiqəyə ev sahibliyi etməklə öz imicini cilalamaq istəyir. Amma insan haqları fəalları ölkədə bu sahədəki pozuntulara diqqət çəkirlər. Ortada çıxılmaz vəziyyətdə qalanlar isə bu «qeyri-siyasi» tədbirin təşkilatçılarıdır.**

### ƏN YAXŞI GÖRÜNTÜ BAYILDAKI BİNADANDIR

«Eurovision-2012» mahnı müsabiqəsinin keçiriləcəyi arenanın ən yaxşı görüntüsü Aqil Quliyev küçəsi 5-dəki binanın 9-cu mərtəbəsindən çəkilə bilər. Azərbaycanın ən böyük bayrağı düz binanın qarşısındadır. Bayraq Meydanının digər tərəfində isə «Baku Crystal Hall» tikilir. «Ancaq bu mənzərədən zövq alan yoxdur. Binanın 9-cu mərtəbəsində pəncərələr sökülüb. Hər yer söküntüdür. Künclərdə qar komaları əmələ gəlib. Binanın lap yanında kran quraşdırılıb, istənilən vaxt işə hazırdır. Yəqin tezliklə evin damı söküləcək və yağıntı düz aşağı mərtəbədə yaşayanların mənzillərinə düşəcək».

«Der Spiegel» yazır ki, Aqil Quliyev küçəsi 5-dəki bina bir simvola çevrilib. O, neft bumu yaşayan şəhərin özünü necə qəddarlıqla Qərb şəhərlərinə, hətta Dubaya oxşatmasının təcəssümüdür. Bu bina həmçinin korrupsiyaya uğramış bir ölkədəki özbaşınalıqları göstərir. Bu ölkədə hüquqlar ancaq kağız üstündədir.

### TƏŞKİLATÇILARIN İKİLƏŞƏN MÖVQEYİ

Mahnı müsabiqəsinin təşkilatçısı olan Avropa Yayım Birliyi bu binada baş verənlərə görə məsuliyyət daşımır. Onlar təkid edirlər ki, heç kəsdən yeni bina tikməyi, köhnə binaları sökməyi xahiş etməyiblər. İndi isə onlar deyirlər ki, «Crystal Hall»u müsabiqə üçün seçiblər. Onlar həmçinin əlavə edirlər ki, Bakıda mövcud strukturların sökülməsini tələb edən inkişaf planı Azərbaycan ötən may müsabiqədə qalib gəlməmişdən əvvəl hazırlanıb.

«27 yaşlı niderlandlı sahibkar və motivasiya kitabının müəllifi Sietse Bakker müsabiqə təşkilatçılarının sözçüsüdür. O, soyuqqanlıqla özünü bütün bu mübahisələrdən kənar tutsa da, sonda lap Azərbaycan hökumətinin sözçüsü kimi danışır. Deyir, evlərindən köçürülənlərlə ədalətli kompensasiya alırlar».

Amma heç də hamı onunla razı deyil. Həmin binada yaşayanlar deyirlər ki, ancaq qanuni kompensasiyalarını istəyirlər. Sakinlər sənədlərinin surətlərini də çıxarıblar. Mənzillərinin sahəsinin düzgün hesablanmadığını deyirlər. Qəzəb, bəzən də göz yaşı içində danışırlar. Müəllif yazır ki, məcburi köçürülmələr təkcə «Eurovision» müsabiqəsi ilə bağlı deyil. «Human Rights Watch»un Avropa və Orta Asiya bölümünün direktor müavini Rachel Denber deyir ki, bu tədbir dar macalda sakinlərlə pis rəftarı daha da gücləndirib.

### SONUNCU BİNA, GÜL LƏKİ, MEHMANXANA

«Der Spiegel» daha sonra yerli hüquq müdafiəçilərindən Leyla Yunusun ölkədə insan haqlarının vəziyyətinə dair fikirlərini dərc edib. Ancaq bu qətiyyətli qadının ofisini də ötən il dağıdıblar. O, həmin vaxtdan bəri depressiya ilə mübarizə apardığını deyir.

Ancaq nə baş verirsə-versin, yəqin ki, müsabiqə vaxtı Aqil Quliyev küçəsi 5-dəki binanın yerində gül ləki salınacaq. Bundan sonra, ola bilsin, bu ərazidə başqa bir mehmanxana tikilsin. Hər halda, fantastik mənzərə olacaq.

## AzadliqRadiosu.az saytında maraqlı videolar

**2. Nazirin yaşadığı evə bax, korrupsiyaya qiymət ver**
**3. AZİNCO-nun kökləri hara gedib çıxır?..**
**4. 2011-ci ilin ən yaxşı media fotoları**
**5. Liviyaya da qar yağdı**
**6. Küçədə yaşayan evsizlərə çadırlar gəlib çıxmadı**
**7. Son illərin ən şaxtalı Bakısı**
**8. Kərgədan zooparkdan qaçarsa...**

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun


**Müğənni Whitney Houston vəfat edib**


Əhmədinejad: **«Yaxın günlərdə nüvə layihəsi təqdim olunacaq»**


Həbsdə olan cərrah: **«Mən pulu rüşvət yox, hörmət kimi qəbul etmişəm»**

# Rafiq Əliyev: «Mən həqiqətən də fərariyəm»



Rafiq Əliyev

**Fevralın 10-da professor Rafiq Əliyevin 70 yaşı tamam olub. O, 1942-ci ilin bu günü dünyaya gəlib. Onunla doğum günündə ayaqüstü söhbətimizi edirik.**

**- Siz daha çox yaxşı kim ola bildiniz - şagird, tələbə, yoxsa alim, ağsaqqal?**

- Məncə, indiki statusumdan daha çox razıyam. İndi zehinlərə daha çox şey verə bilirəm. Çox məmnunam ki, dünyanın müxtəlif yerlərinə tələbələr göndərə, onların təhsil almalarına zəmanət verə bilirəm. 150-yə yaxın elmlər namizədi, 30-a yaxın elmlər doktoru yetişdirmişəm. Onlar hazırda bu elmi dünyanın müxtəlif yerlərində davam etdirirlər.

**- Amma xeyli də elm adamı, akademik, professor, elmlər namizədi Sizə qarşı yazılar yazdı, çıxışlar etdi. Bəs bu necə olsun?**

- Onlar pis adamlar deyillər. Düzü, mənim onlara yazığım gəlir ki, o vəziyyətə salındılar. Gərək özləri düşməyəydilər. Amma düşdülər, nə etmək olar.

**- Sovet adamlarının təsəvvüründə 70 yaş daha çox son, süqut, iflas, dağıntı rəqəmi kimi yadda qalıb. Siz yetmişinizin sonrasını necə görürsünüz?**

- Allahın izni ilə, əgər sağlamlıq versə, hələ planlar çoxdur. Qarşıda iki hədəf var. Bəzi elmi hədəflərə çatmaq, digər tərəfdən də gücümüz çatan qədər ictimai fikrə təsir etmək barədə düşünürəm.

**- Alınsa, bunlar nəyə gətirib çıxaracaq Sizcə?**

- Yüksək azadlıq, yüksək demokratiya, yüksək iqtisadi texnoloji model. Mən Azərbaycanda bunları görmək istəyirəm.

**- Bunlar kiməsə lazımdırmı ümumiyyətlə?**

- Əlbəttə. Sizə, mənə, cəmiyyətə - Azərbaycana. Hökmən lazımdır.

**- Bunlarsız nə olur onda?**

- Bunlar olmasa, bu gün olur...

**- Söhbətimizin əvvəlində dediniz 7-də də, 17-də də ancaq tərif eşitmisiniz. Amma 70 yaşınızda, deyəsən, hamısının əvəzi çıxılır. Yaman tənqidlər var...**

- Hə, tənqidlər var.

**- Fərari deyirlər Sizə 70 yaşında.**

- Hə, onu düz deyiblər. Mən həqiqətən də o sözü deyənlərin cəbhəsindən fərariyəm. Onu deyənlərin müstəvisində özümü görmürəm. Orada hər şey var, məntiqdən başqa.

***İlqar Rəsul***

# Yeni Bakı möcüzəsi: 476 mənzilli evin 579-cu mənzili...

**«764 min dollar mənim, 70 min dollar bir qohumumun, 117 min dollar da başqa qohumumun adından ödənilib. Qohumlarım Rusiyada yaşadıqlarına görə pullar mənim adımdan ödənilib, mənzillər də mənim adıma alınıb. İndiyə qədər şirkət nə evi tikib verir, nə pulları qaytarır. Qalmışam qohum-əqrəbanın əlində». Aqil Əliyev 2006-2008-ci illərdə «Fuad» MMC-nin Xırdalanda inşa etdiyi binadan ev almaq üçün şirkətə 1 milyon dollara yaxın pul ödəyib.**

Aqil Əliyev deyir ki, binadan ona satılan mənzillərdən birinin nömrəsi 579-dur. Şirkət işçilərinin əməllərindən şübhələnməyə başlayanda, araşdırıb ki, binanın planında cəmi 476 mənzil var.

**«ŞİRKƏTİN İŞÇİLƏRİNİN SÖZÜNƏ İNANIB EVİMİ SATDIM»**

*Başqa payçı Nizami Əliyev deyir ki, öz evini satıb şirkətə 100 min manatdan çox ödəməklə həmin binadan üç mənzil alıb:* «Şirkət işçilərinin sözünə inanıb evimi satdım, dedilər «gətir pulu, sənə burdan 3 mənzil verək, bu yaxınlarda tikintini bitirəcəyik». İndi qalmışam kirayələrdə. Sonradan başa düşdük ki, bunların məqsədi ev tikmək yox, dələduzluq etmək imiş».

Payçılar deyirlər ki, onlar kimi aldananların sayı ən azı 400 nəfərdir. Şirkət payçıların milyonlarla pulunu mənimsəyib. Məhkəmədə «Fuad» MMC-nin nümayəndəsi Nicat Gözəlov izahat verib ki, iddiaçılarla şirkət arasında kooperativ binada mənzil tikintisinə dair müqavilə imzalanıb.

Binada tikinti bir müddət davam edib və maliyyə çətinlikləri ilə əlaqədar iş dayanıb. O deyib ki, cavabdeh şirkət öhdəçilikdən qaçmır, sadəcə, binanı tikib təhvil vermək üçün vaxt istəyir. Məhkəmə də payçıların şikayətləri əsasında qətnamə çıxarıb ki, bina tikilib təhvil verilənədək payçıların kirayədə qalması üçün şirkət hər payçıya ayda 300 manat ödəsin. Payçılar deyirlər ki, şirkət rəhbərliyi qətnaməni də icra etmir.

**«İŞLƏRİ İDARƏ EDƏN MTN İŞÇİSİ FUAD İDİ»**

*Payçı Valeh Əliyarov isə deyir ki, «Fuad» MMC -nin təsisçisi və direktoru Qasım Məmmədov əslində fiqurdur. Onların aldadılmasının arxasında başqa adamlar dayanır:* «O adamlar da elə Qasım Məmmədovun yaxın qohumlarıdır. Adamlardan pulları yığanda



Foto: Arxiv

hamısı ortalıqda idi, işləri də oğlu Fuad Məmmədov idarə edirdi. Fuad Məmmədov da Milli Təhlükəsizlik Nazirliyində işləyir. Elə ki, səs-küy qalxdı, adamlar pullarını geri tələb etməyə başladılar, 65 yaşlı kişini verdilər qabağa, özləri aradan çıxdılar».

«Fuad» MMC-nin təsisçisi və direktoru Qasım Məmmədov isə deyir ki, rəhbərlik etdiyi şirkət 2005-ci ildən indiyədək 400 yox, 180 nəfərin mənzil pulunu alıb. Deyir ki, hazırda binanın 3 blokunun montaj işi başa çatıb. Yaxın vaxtlarda digər blokların tikintisinə başlanacaq.

**FUAD MƏMMƏDOV KİMDİR?**

**Yazının davamını AzadliqRadiosu.az saytında oxuyun.**

# Sahibkarın yükü gömrükdən niyə buraxılmır?



Arxiv foto. Nəqliyyat Nazirliyinin işçiləri İrandan gələn iri yük maşınlarını Azərbaycan ərazisində tərəziyə çıxarırlar. 2 iyun 2010

**Sahibkar Ədalət Abbasovun AzadlıqRadiosuna dediyinə görə, ötən 18 gün ərzində o, Sumqayıt Baş Gömrük İdarəsi ilə Dövlət Gömrük Komitəsinə dəfələrlə müraciət edib. Yükün buraxılmaması səbəblərinə aydınlıq gətirilməsini istəyib.**

### «5 GÜN BİZİ LƏNGİTDİLƏR Kİ, RƏİS YOXDUR, SONRA DA...»

«Yanvarın 25-nə kimi bizi ləngitdilər. Yük şöbəsinin müdiri Aslan Sərxanov bizə dedi ki, Sumqayıt Baş Gömrük İdarəsinin rəisi Ehtiram Xəlilov işə gəlmədiyi üçün, ərizənizin üstü yazılmadığından sizin yükünüzü hələlik sərbəst dövriyyəyə buraxa bilmirik». Ədalət Abbasovun sözlərinə görə, daha sonra ona deyilib ki, gətirdiyi yükün qiyməti çox aşağı olduğundan məsələ araşdırılacaq. Hazırda Sumqayıt Baş Gömrük İdarəsinin Qaçaqmalçılığa Qarşı Mübarizə Şöbəsində yüklə bağlı araşdırma aparılır: "Bu günə kimi nə araşdırırlar, nə edirlər, bizim məlumatımız yoxdur. Bir neçə dəfə müraciət etdim, dedilər ki, araşdırma ilə bağlı məhkəmə ekspertizasına müraciətimiz olacaq. Bu gün fevralın 7-dir, amma heç bir yerə müraciət olunmayıb, mal da buraxılmayıb".

### SUMQAYIT BAŞ GÖMRÜK İDARƏSİNDƏN VERİLƏN VƏ VERİLMƏYƏN CAVABLAR

Sumqayıt Baş Gömrük İdarəsinin rəisi Ehtiram Xəlilov suallarımızı dinləsə də, bu barədə heç bir söz demədən telefonu qapadı. İdarənin yük şöbəsinin müdiri Aslan Sərxanov isə bu məsələdən xəbərsiz olduğunu deyir:

- Mən respublikada deyiləm. Sahibkarlar çox şey deyə bilərlər.

*- Aslan müəllim, deyə bilərsinizmi ki, problem nədir?*

- Mən bilmirəm, işin içində deyiləm...

Biz 11 gün əvvəl, yanvarın 27-də bu məsələ ilə bağlı ilk araşdırmamızı aparanda Aslan Sərxanov məzuniyyətdə olduğunu bildirmişdi. İdarənin rəisi isə elə indiki kimi sualımızı dinlədikdən sonra telefonu qapamışdı. Sahibkar isə iddia edir ki, yük şöbəsinin rəisi Aslan Sərxanov bu məsələdən xəbərdardır və onlar bir neçə dəfə onunla görüşüb bu məsələni müzakirə ediblər. Bundan başqa, bir dəfə də Dövlət Gömrük Komitəsində olub problemi komitə rəsmilərinin diqqətinə çatdırıblar.

### MƏSƏLƏNİN «MUSTAFASI»

Ədalət Abbasovun dediyinə görə, əslində yüklə bağlı hər hansı problem yoxdur, sadəcə, onlara deyilən məbləği ödəməkdən imtina etdikləri üçün belə bir vəziyyətlə üzləşiblər: «Açığı deyim ki, Sumqayıt Baş Gömrük İdarəsinin Maliyyə Şöbəsinin rəis müavini Əhməd Hüseynov bizə dedi ki, yükün dəyərindən asılı olmayaraq hər maşına 15 min 600 manat pul köçürməlisiniz».

Sahibkar deyir ki, gətirdikləri yükün hər maşını üçün dövlət rüsumu 7200 manatdır. Sumqayıt Baş Gömrük İdarəsinin Maliyyə Şöbəsinin rəis müavini Əhməd Hüseynovu gün ərzində yerində tapa bilmədik. Malın ucuz olması ilə bağlı gömrüyün iradlarına gəlincə, Ədalət Abbasov deyir ki, onlar malı Türkiyədən ucuz qiymətə aldıqları üçün həmin mal Azərbaycana da ucuz gəlib çıxıb. Sahibkar iddia edir ki, gömrükdə həmin malı daha baha qiymətə sənədləşdirmək istəyirlər ki, həmin qiymətə uyğun rüsum alsınlar.

### BU, RƏQİBİ SIXIŞDIRMAQ ÜÇÜN DƏ OLA BİLƏR

İqtisadçı Qubad İbadoğluna görə, ola bilər ki, hansısa sahibkar vergidən yayınmaq üçün xaricdən gətirdiyi malın qiymətini sövdələşmə nəticəsində aşağı qiymətlərlə sənədləşdirir: «Və yaxud da



Qubad İbadoğlu

kimsə öz rəqibini bazara buraxmaq istəmir, bundan bir vasitə kimi istifadə edir. Ola bilər ki, elə gətirilən malın invoys dəyəri real bazar dəyərinə uyğundur, amma gömrük məmuru öz səlahiyyətlərindən istifadə edib hesab edir ki, malın qiyməti aşağı göstərilib və bu, malın gömrük rəsmiləşdirilməsinə imkan vermir».

İqtisadçı hesab edir ki, belə halların qarşısını almaq üçün ayrı-ayrı mallar üzrə tariflər olmalıdır ki, buna uyğun da malın gömrük dəyəri hesablansın. O, hesab edir ki, bununla həm şəffaflığa əməl olunar, həm də sahibkarlar problemlə üz-üzə qalmazlar.

# Azərbaycan Ermənistana kömək təklif edir



Yerevan

Azərbaycan hökuməti Yerevan şəhərinin tarixi simasının canlandırılması üçün bu şəhərin xəritələrini və cizgilərini Ermənistana verməyə hazırdır. Bunu «İnterfaks-Azərbaycan» agentliyinə Azərbaycan Prezident Administrasiyası İctimai-Siyasi Şöbəsinin sektor müdiri Fuad Axundov deyib. Bir müddət əvvəl Ermənistan hakimiyyəti paytaxt Yerevanın qədim mərkəzini bərpa etmək niyyətini açıqlayıb. «Həqiqətən Yerevan şəhərinin əvvəlki tarixi simasını bərpa etmək istəyirlərsə, biz lazımi şəkilləri və cizgiləri erməni tərəfinə verə bilərik», - deyə F.Axundov bildirib. İndi Ermənistanın paytaxtı olan Yerevan şəhəri tarixən türk qalası kimi tanınmışdı. İlk dəfə adı VII əsrdə (607-ci ildə) çəkilir. XVI əsrə məxsus Yerevan qalası bütün tikililəri ilə birlikdə məhv edilib.

***Apa***

# İlham Əliyevin Münhen görüşünə reaksiyalar

**«O CÜR QƏZƏBLİ, SƏRT CAVABLARLA, SUAL VERƏNİ SAVADSIZLIQDA İTTİHAM ETMƏKLƏ VƏZİYYƏT DÜZƏLMİR»**

Müsavat Partiyasının başqanı İsa Qəmbər Azərbaycan prezidenti İlham Əliyevin fevralın 3-də Münhendə üzləşdiyi sual və onun cavabına münasibət bildirərkən belə deyib. Almaniyanın



İsa Qəmbər

Xarici Siyasət və Təhlükəsizlik İnstitutunun direktoru Volker Perthes sual etmişdi: *«Öz siyasi strukturuna görə Mübarəkin devrilməsindən əvvəlki Misirə çox bənzəyən Azərbaycan kimi ölkəyə sərmayə yatıracaqsınızmı?»*

İlham Əliyevsə sözə belə başlayıb: *«Mən bayaqkı şəxsin savadından irəli gələrək bilmədiyi bir neçə göstəricini diqqətə çatdırmaq istəyirəm».* Daha sonra 8 illik prezidentlik dövründə Azərbaycanda ümumi daxili məhsulun 3 dəfə artdığını deyib: *«Yoxsulluğun səviyyəsi 50 faizdən 7,6 faizə enib. İnflyasiyanın səviyyəsi 5,4 faiz təşkil edir. Son 8 il ərzində 1 milyondan artıq iş yeri yaradılıb».*

Prezident deyib ki, siyasi vəziyyət də sabitdir. Ölkədə çoxpartiyalı sistem var. Mətbuat, din, internet də azaddır. O, çıxışını belə yekunlaşdırıb: «Kimsə Azərbaycanda Misirdə baş verən hadisələr kimi nəsə görmək istəyirsə, sizi əmin edirəm ki, nəyisə arzu edib-etməməyinizdən asılı olmayaraq bunu görməyəcəksiniz».

*Müsavat Partiyasının başqanı İsa Qəmbər deyir ki, bu cavaba nə Avropada, nə də Azərbaycanda inanırlar:* «Gerçəklik Azərbaycanda 180 dərəcə əksinədir. Və həmin toplantıda Azərbaycandakı vəziyyəti bildikləri üçün sual vermişdilər. Ona görə də o cür qəzəbli, sərt cavablarla, sual verəni savadsızlıqda ittiham etməklə vəziyyət düzəlmir. Əksinə, Azərbaycanda vəziyyəti dəyişmək lazımdır».

**«BİZİM CAMAATIMIZ CANINI ÇOX SEVİR VƏ AZADLIĞIN DADINI BİLMİR»**

«İlham Əliyevin cavabı sıravi və riyakar cavabdır». Politoloq Zərdüşt




Zərdüşt Əlizadə

Əlizadə belə deyir: «Özünün elan etdiyi yalançı rəqəmlərə söykənir. Amma hamı bilir ki, iş yerləri açılmayıb, söz azadlığı yoxdur, hamı bilir ki, ədalətsiz bir hakimiyyət var. O deyir və utanmır». Misirlə Azərbaycanın müqayisəsinə gəlincə, Zərdüşt Əlizadə də əmindir ki, bu 2 ölkəni və cəmiyyəti həqiqətən də müqayisə etmək olmaz: «Misirdə yüzlərlə adam həyatından keçdi və küçələrdən çəkilmədi. Amma Azərbaycanda mən belə ehtimalı ağlıma gətirmirəm. Onlar düşünürlər ki, vətən, millət, ümmət yolunda şəhid olub cənnətə gedirlər. Bizim camaatımız düşünür ki, 5 günlük dünyadır, ləzzətini çək. Bizim camaatımız canını çox sevir, azadlıq dadını bilmir. Təbrizlilər bilir, biz bilmirik».

Zərdüşt Əlizadəyə görə, Azərbaycanı ancaq Rusiya ilə müqayisə etmək olar. Orda dəyişiklik olacaqsa, Azərbaycanda da dəyişiklik mümkündür.

# İqtisadçı prezidentə cavab verir



Natiq Cəfərli

**Azərbaycan prezidenti İlham Əliyev Münhen Təhlükəsizlik Konfransında Almaniya Xarici Siyasət və Təhlükəsizlik İnstitutunun direktoru Volker Pertesin səsləndirdiyi sualı şərh edərkən 8 illik prezidentliyi dövründə ölkənin əldə etdiyi nailiyyətləri sadaladı:**

1) Azərbaycanda ümumi daxili məhsul 3 dəfə - 300 faiz artıb;

2) Yoxsulluğun səviyyəsi 50 faizdən 7,6 faizə enib;

3) İnflyasiyanın səviyyəsi 5,4 faiz təşkil edir;

4) Son 8 il ərzində 1 milyondan artıq iş yeri yaradılıb;

5) Xarici borc bizim ümumi daxili məhsulumuzun 6 faizini təşkil edir;

6) İqtisadiyyatın şaxələnməsi sabitdir;

7) Siyasi vəziyyət sabitdir.

REAL Hərəkatının icra katibi Natiq Cəfərli prezidentin tezislərinə cavab verib. Realnews.az Natiq Cəfərlinin fikirlərini çap edib:

1) Düzdür, deyilənlərlə razıyam. Amma bunun bizim hökumətə nə dəxili var axı? Qərb şirkətləri nefti çıxarır, daşıyır, satır, pulunu bizimkilərə verir. Neftin qiyməti və həcmi artdı, təbii, ÜDM də 3 dəfə artdı, ÜDM də neftin-qazın payı 70%-i keçib, bəs bunu niyə demir?

2) Bu barədə çox danışmışam, yazmışam. Söz oyunudur, yoxsulluq həddini özləri müəyyən edirlər, sonra da deyirlər ki, azalma olub. Əgər ən kasıb Avropa ölkəsi Bolqarıstanda olduğu kimi, yaşayış minimumu 220 avro götürülsə, bizdə 60-65% əhalinin yoxsulluq həddindən aşağı yaşamadığı üzə çıxar.

3) Bu da söz oyunudur. Birincisi, bu il rəsmi inflyasiya 8% olub, 2-ci də son 8 ildə inflyasiya 200%-ə yaxın olub.

4) Bu əfsanəni çox eşitmişik, amma rəqəmlər başqa şey deyir, ölkədə 4,5 mln. əmək qabiliyyəti olan insan var, sosial müdafiə nazirliyində sığorta kartı olan insanların sayı cəmi 1,8 mln. nəfərdir, qanuna görə 3 gün hər hansı bir yerdə işləsən, sosial yığım kartı almalısan. Komitənin rəsmi rəqəmlərini təftiş etməklə, bu rəqəmin mif olduğunu sübut etmək olar.

5) Bu rəqəmlə tam razıyam, düz deyir. Amma bunun səbəbi hökumətin yaxşı işləməsi deyil, neft pullarının axmasıdır.

6) Bəli, razıyam, şaxələnmə sabitdir. Yəni necə neftdən asılılıq qalırdısa, indi də qalır. Hətta asılılıq artıb təhlükəli həddə çatıb.

7) Bu nə deməkdir axı? Sabitlik nə vaxtdan dəyər olub? Siyasi vəziyyət Şimali Koreyada da sabitdir, nə olsun ki?...

# Khazar Islands обойдется в $100 млрд


Проект Khazar Islands

**«Строительство города на Каспийском море - Khazar Islands обойдется в 100 млрд. долларов». Это сообщил президент концерна Avesta, который ведет строительство, Гаджи Ибрагим Нехрямли. Khazar Islands, который строится на искусственном архипелаге, будет состоять из 41 острова различных размеров общей площадью 3 000 гектаров и 19 микрорайонов. В общей сложности архипелаг займет 24 кв. км – длина составит 8 км, ширина - 3 км. Общая длина бульвара достигнет 50 км.**

Концерн Avesta начал строительство 10 месяцев назад. В настоящее время ведется строительство одного из четырех больших островов и 6-7 жилых зданий на нем. В общей сложности, город сможет принять 1 млн. жителей. «Проект будет реализован в три этапа до 2022-2023 годов, а первые жители здесь поселятся в 2013-2014 годах», - отметил директор по продажам и маркетингу проекта Кянан Гулузаде.

В настоящее время Khazar Islands строится за счет собственных средств Avesta, но планируется привлечение иностранных инвесторов. На строительство основной части проекта требуется 60 млрд. долларов. Планируется, что вся эта сумма будет привлечена из внешних источников - 30 млрд. долларов составят иностранные инвестиции, еще 30 млрд. долларов поступят от продажи квартир. Инвестиции должны окупиться с 10-15%-ным доходом, считают в Avesta.

Большинство жилых домов на Khazar Islands будут 25-этажными, а на некоторых островах будут построены 40-60-этажные здания.

На Khazar Islands будет богатая сеть социальных и развлекательных объектов отдыха. Здесь будут заложены парки, построены социальные объекты - 150 школ, 50 детских садов и больницы, многочисленные кинотеатры, театры, рестораны и торговые центры. Общая площадь строительства составляет 30 млн. кв. м. Из них 22 млн. займут жилые дома, 4 млн. – торговые и бизнес-центры, еще 4 млн. – отели и апартаменты.

Также планируется строительство трассы «Формулы-1», аэропорта, университетов, 1-километровой «Башни Азербайджана». В будущем планируется создание системы административного управления городом - мэрии и присвоении проекту статуса города.

# Иран как головная боль президента Обамы

*Недавно президент Барак Обама подписал исполнительный ордер, ужесточающий санкции против Национального банка и других банков Ирана, пытающихся использовать лазейки в уже существующем режиме запретов на финансовые операции США и стран Европы с этими учреждениями. В письме к Конгрессу Обама сообщил, что если раньше от американских банков требовалось только отказываться от контакта с иранскими государственными активами, то теперь они обязаны по возможности налагать на них арест.*

Тем временем, в американских СМИ появились сообщения о том, что Иран вынужден идти на экстраординарные меры, чтобы обеспечить свое население продовольствием. Стало известно, что из-за невозможности оплачивать импорт продовольствия обычным путем из-за различных финансовых санкций Иран прибегает к бартерному обмену. Так, Иран срочно закупил на международном рынке 200 тысяч тонн пшеницы, выращенной в Австралии и, вероятно, в Соединенных Штатах. Из-за трудностей с приобретением долларов и евро Иран расплачивается с частными трейдерами золотыми слитками или нефтяными поставками. Есть предположение, что для этого Тегеран использует базирующиеся в Швейцарии компании, которые финансируют сделки на базе японской йены. Частные иранские трейдеры также намерены закупить большие партии пшеницы и чая в Индии, которая формально имеет право продавать эти товары Ирану без нарушения санкций ООН.

Означает ли все это, что, наконец, экономические санкции против Ирана начинают по-настоящему действовать? И достаточно ли этого, чтобы Иран пошел на уступки Западу по вопросу о своей ядерной программе? Хафиз Малик, профессор-международник из университета Вилланова в Пенсильвании считает:

– Санкции, несомненно, сильно влияют на состояние экономики Ирана. Однако я серьезно сомневаюсь в том, что санкции окажутся успешными до той степени, чтобы


Барак Обама

повлиять на развитие иранской ядерной программы. Да, иранцы, судя по всему, начинают жестоко страдать от санкций. Однако ядерная программа для иранского руководства несет сакральный смысл, она является приоритетным символом национального престижа. Соединенные Штаты желают от Ирана не частичных уступок, а полного отказа от ядерной программы. Я сейчас не представляю, как Вашингтон и Тегеран могут придти к компромиссу и избежать вооруженных действий. Был бы очень рад ошибиться. Но именно такой я вижу ситуацию.

***Аллан Давыдов***
**Радио Свобода**

# Prezident Administrasiyasına müraciətlər çoxalıb

**MÜRACİƏTLƏR ARTIB, ŞİKAYƏTLƏR AZALIB?**

*Prezident Administrasiyasının Sənədlərlə və Vətəndaşların Müraciətləri ilə İş Şöbəsinin müdiri Süleyman İsmayılov* fevralın 9-da «Azərbaycan» qəzetində dərc edilən məqaləsində bildirir ki, əvvəlki illərə nisbətən 2011-ci ildə administrasiyaya hüquq-mühafizə, məhkəmə, yerli icra hakimiyyəti orqanlarının



Süleyman İsmayılov

fəaliyyəti, tikinti, mənzil, torpaq, sel daşqınları, bank, kredit və özəlləşmə ilə bağlı müraciətlər artıb. Onun bildirdiyinə görə, «icra başçıları ilə bağlı razılıq məktubları ilə yanaşı, müəyyən məsələlərdə onların işlərindən narazılıq da bildirilir».

Məqalənin birinci hissəsində deyilir ki, prezident İlham Əliyevin vətəndaşlara qarşılaşdıqları problemlər və neqativ hallar barədə Prezident Administrasiyasına məlumat verməyi tövsiyə etməsi vətəndaşların fəallığını daha da artırıb, ictimai əhəmiyyət daşıyan müraciətlər daha çox olub: «Müraciətlərin ümumi sayından və dinamikasından bəhs etsək, qeyd etməliyik ki, bütövlükdə müraciətlərin sayı artsa da, bu artım əsasən minnətdarlıq məktubları, ərizələr və təkliflər hesabına olub, şikayətlərin sayı əvvəlki ilə nisbətən azalıb».

**XALQA XİDMƏTİN UNİKAL OBRAZI**

*Milli Məclisin deputatı Zahid Oruc* deyir ki, vətəndaşların Prezident Administrasiyasına müraciət etmələrinin bir səbəbi, əlbəttə ki, bəzi məmurların öz vəzifələrini şəxsi maraqlarına uyğun yerinə yetirmələridir. Özünü sıravi vətəndaşdan üstün görən, üzərinə düşən vəzifəni yerinə yetirmək əvəzinə, «çinovnik»lik edən beləlləri postlarından getməlidirlər. Amma Prezident Administrasiyasına müraciətlərin çox olmasının daha ciddi digər səbəbi isə dövlət başçısının əhali arasındakı nüfuzudur: «Cənab prezident xalqa xidmətin çox unikal – səmimi, sadə, insanlara yaxın, heç bir bufer zonası, keçilməz səddi olmayan bir obrazını yaradıb. Yetər ki, məmur da belə olsun».

**BİR NƏFƏRİN İDARƏÇİLİYİ**

*Vəkil Fuad Ağayev isə deyir ki, vətəndaşların problemlərinin həllini Prezident Adminstrasiyasında axtarmalarının səbəbi odur ki, ölkə yalnız bir nəfər tərəfindən idarə olunur:* «Bu, ondan irəli gəlir ki, Azərbaycanda hakimiyyətin bütün qanadları bir nəfərin – yəni dövlət başçısının iradəsi ilə idarə olunur. Belə bir vəziyyətdə, əlbəttə ki, hüquqları pozulan bütün vətəndaşlar yaxşı anlayırlar ki, onların qanunvericilik xətti ilə öz problemlərini həll etmək şansı azdır. Ona görə də üz tuturlar dövlət başçısına. Prezident Administrasiyasına şikayətlər də bu səbəbdən ünvanlanır».



Fuad Ağayev

Fuad Ağayev bildirir ki, o, Prezident Adminstrasiyasına müraciət edib probleminin həllinə nail olduğunu deyən birisinə rast gəlməyib. Əksinə, son bir neçə ildə hətta bu iqtidarı dəstəkləyən adamlar arasında da hakimiyyətdən narazıların sayı xeyli artıb. Onlar görürlər ki, ölkədə özbaşınalıq hökm sürür, qanunlar icra olunmur, dövlət orqanları ev yıxırlar. Administrasiyaya göndərilən şikayətlər bu barədədir. Onların mütləq əksəriyyəti ilə bağlı da hansısa ciddi tədbirlər görülmür.

***İlqar Rəsul***



## J.Appaturai: «İlham Əliyev NATO-nu əmin etdi ki...»

«Əfqanıstana NATO yüklərinin 30 faizi Azərbaycan ərazisindən istifadə etməklə çatdırılır. Prezident İlham Əliyev NATO-nu əmin edib ki, Azərbaycan gələcəkdə də tranzit məsələsində Alyansın etibarlı tərəfdaşı olacaq». Bunu Azərbaycanda səfərdə olan NATO-nun Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi James Appaturai fevralın 10-da jurnalistlərə açıqlamasında bildirib. Əfqanıstandakı sülhyaratma fəaliyyətinə görə Azərbaycana təşəkkürünü bildirən NATO təmsilçisi rəsmi Bakının bundan sonra da Alyansın bu tipli əməliyyatlarında iştirak edəcəyinə əminliyini vurğulayıb: «Azərbaycan-NATO əməkdaşlığı qarşılıqlı maraqlara cavab verir və bu məsələlərin müzakirəsi yaxın gələcəkdə davam etdiriləcək».

***İlqar Rəsul***

## Avropa Birliyi Azərbaycana azad iqtisadi məkan təklif edəcək

Avropa Birliyi (AB) Azərbaycanı Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv olması məsələsində dəstəkləyir. Bu barədə jurnalistlərə AB-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Roland Kobia bildirib. O deyib ki, AB Azərbaycanın ÜTT-yə üzv olmasından sonra ölkəyə azad iqtisadi məkan haqqında saziş imzalanmasını təklif etmək niyyətindədir. Azərbaycan nümayəndə heyəti fevralın 24-də Cenevrədə ÜTT-nin işçi qrupu ilə çoxtərəfli danışıqların doqquzuncu raundunun və ikitərəfli danışıqların keçirilməsinə hazırlaşır. Azərbaycan 1997-ci ildən ÜTT-də müşahidəçi statusunda təmsil olunur. Azərbaycan danışıqlara 2004-cü ildə qoşulub.

# Misir pullarının Azərbaycan izi

## 4 milyardlıq qanunsuz varidatın izlərini tapan jurnalist araşdırması


Azerbaijan - Monument of Egypt president Hosni Mubarak in Baku Khirdalan - 31Jan2011

**Misirdə qırx illik diktaturaya son qoyan inqilabdan sonra Hüsnü Mübarəkin yaxınları onun korrupsiya yolu ilə qazandıqlarının izini itirməyə çalışır. Mübarəkin yaxın ətrafındakı şəxslərin korrupsiya yolu ilə qazanıldığı ehtimal olunan varidatının bir izi də Azərbaycana gəlib çıxır. Mütəşəkkil Cinayətkarlıq və Korrupsiya Təhqiqatları Layihəsinin (OCCRP) jurnalistlərinin araşdırması göstərir ki, ofşor şirkətlər vasitəsilə keçirilən əməliyyatlarla keçmiş Misir diktatorunun yaxın dostu və biznes tərəfdaşı Huseyn Salemin varidatı Azərbaycana və Azərbaycan vətəndaşlarına ötürülüb.**

### ƏLİ EVSEN VƏ BAŞQALARI

Ötən ilin mayında Misir prokuroru Mahmud Əbdül Məcid rəsmən bəyan etdi ki, Misir hökuməti Hüsnü Mübarəki, onun oğlanlarını və Mübarəkin dostu, biznes tərəfdaşı və köməkçisi olmuş Hüseyn Salemi korrupsiyada təqsirləndirir. Bu bəyanatdan cəmi üç gün sonra Salemin iki övladı – Xaled və Maqda Salemlər Panamada qeydiyyatda olan ofşor şirkətlərini ilk baxışdan Misirə və günahlandırılan şəxslərə heç aidiyyəti olmayan iki Azərbaycan vətəndaşının adına keçiriblər. İyul ayında isə İspaniya polisi Hüseyn Salemi, onun oğlu Xaledi və türk-ərəb əsilli Əli Evseni çirkli pulların yuyulması ittihamı ilə həbs edib. Azərbaycanda biznes layihələri və şeyxülislam Allahşükür Paşazadənin qudası kimi məşhurlaşmış Evsen az sonra İspaniyanı tərk etməmək şərtilə azadlığa buraxılıb və hazırda məhkəməsini gözləyir.

### DÖRD MİLYARD DOLLAR

Məşhur turizm bölgəsində hotel şəbəkəsinin sahibi olduğu üçün "Şarm Əl Şeyxin atası" kimi tanınan Hüseyn Salem yeni Misir hökuməti tərəfindən Mübarək və onun rejimi ilə korrupsiya sövdələşmələrindən qazanc əldə etməkdə təqsirləndirilir. 2011-ci ilin oktyabrında Hüseyn Salem, oğlu Xaled və qızı Maqda fırıldaqçılıq və çirkli pulların yuyulmasına görə Misir məhkəməsi tərəfindən, qiyabi olaraq ümumilikdə dörd milyard dollar olmaqla, cərimə ödəməyə və yeddi il azadlıqdan məhrumetmə cəzasına məhkum olunublar.

Cərimənin həcmi də təsadüfi deyil. Misirin iqtisadi cinayətkarlıqla mübarizə rəsmiləri bildirib ki, Salemlərin nağdılaşdıraraq Honkonq, Birləşmiş Ərəb Əmirlikləri və başqa ölkələrdəki banklara yerləşdirdiyi varidatın həcmi 4 milyard dollar təxmin edilir. Keçmişdə Misir xüsusi xidmət orqanlarının əməkdaşı olmuş Salemin adı qeyri-qanuni silah alveri qalmaqallarında da hallanır.

### EVSEN SƏRBƏST DEYİLMİŞ


Əli Evsen

Misir hökuməti İspaniya ilə Salemin ekstradisiyası üzrə danışıqlar aparır. Bu arada, Salemlə birgə həbs olunan Əli Evsenin azadlığına qoyulan məhdudiyyətə baxmayaraq, yanvarın sonunda bir həftəlik Bakıya gəlib.

Evsen qrupun "Facebook" səhifəsində yanvarın 13-də yerləşdirilən elanda elə belə də yazılmışdı:

"DIQQET "Evsen" Group! Ali Evsen bu gunden etibaren TAM serbestdir. Ilk novbede butun Ali Evseni seven ve guvenen her bir shexsi tebrik edir ve her kesi inam ve sevgisine gore teshekkur edirik. Gozlenildiyi kimi, bu sinaqdan da inamla ve alni achiq chixdiq. Arzu edirem ki, bele bir sinaq bashimizin ustunu bir daha almasin. Eshq olsun EVSEN GROUP. ESHQ olsun EVSEN adini dashiyan boyuk ailemiz."

İspaniya hüquq-mühafizə orqanlarından alınan məlumatlara görə, Evsenin sərbəstliyi barədə xəbərlər, yumşaq desək, şişirdilib.

### KORRUPSİON BİZNES ORTAQLIĞI QARŞILIĞINDA AZƏRBAYCAN TORPAQLARI

İspaniya polisinin həbs orderində əksini tapan iddiaya görə, Albaniya vətəndaşlığı da olan Əli Evsen Hüseyn Salemin əsas bizneslərindən biri Mediterranean Sea Gas Co-nun payçılarından biridir. Bu şirkət Misir hökumətindən qanunsuz sövdələşmə nəticəsində güzəştli şərtlərlə aldığı qazı dünya bazarındakından ucuz qiymətə İsrailə satmaqla gəlir əldə etməkdə günahlandırılır. İddiaya görə, 2008-ci ildə Əli Evsen Azərbaycandakı torpaq sahələrinin müqabilində Salemlərə milyardlar qazandıran bu biznesə ortaq olub.

Evsenin həbsinə səbəb isə Salemlərə Misir inqilabından sonra ötürdüyü pullar olub. Əli Evsen İspaniyanın Bankinter bankında Salem ailəsinin hesablarına 17 milyon avrodan artıq vəsait köçürüb. Pul transferlərini müşayiət edən sənədlərdə göstərilib ki, Evsen Salemlərə bu pulu 12 illik faizsiz borca verir. İspaniya hüquq-mühafizə orqanları bu transferləri şübhəli saydığı üçün Evsenə qarşı çirkli pulların yuyulması ittihamını irəli sürüb. İttihamnamədə Panamadakı sövdələşmələr barədə heç nə yoxdur.

***(davamı 10-cu səhifədə)***



# Misir pullarının Azərbaycan izi

## 4 milyardlıq qanunsuz varidatın izlərini tapan jurnalist araşdırması

*(əvvəli 9-cu səhifədə)*



**YENİ ADLAR**

İspaniya hüquq-mühafizə orqanlarının Salem ailəsi ilə ilk baxışda heç bir əlaqəsi olmayan iki azərbaycanlıya ötürülən şirkətlərdən xəbəri var, ya yox, bəlli deyil. Amma OCCRP-nin araşdırması nəticəsində ortaya çıxan bu sövdələşmənin də ipucları hələ ispan polisinin nəzarətində olan Əli Evsenə gedib çıxır. Salemlər ailəsi varidatlarını ört-basdır etmək üçün İsveçrədə bir hüquq şirkətinin xidmətindən istifadə edib. OCCRP Andre Gillioz və onun hüquq firmasının izinə bir müddət əvvəl Ərəb Jurnalistlər Liqası ilə birgə Salemlərin Şərqi Avropadakı investisiyalarını araşdırarkən düşüb. Gilliozun firması Virgin adalarında və Panamada yerləşən ofşor firmalar vasitəsilə Salemlərin varidatının Rumıniyada Jolie Ville əyləncə və satış mərkəzinə yatırılmasına kömək edib. Sonra isə 2010-cu ilin dekabrında, yəni ərəb baharının ilk çağlarındaca heç kimə məlum olmayan Çiopraqa ailəsinə satılmasına və 10 milyon avroya yaxın nağd pula çevrilməsinə yardımçı olub.

Azərbaycana iz açan Panama sövdələşməsində də Gilliozun adı çəkilir. Panama dövlət reyestrindəki qeydlərə görə, Clelia Assets Corp. 1998-ci ildə İsveçrə hüquq şirkəti Croisier and Gillioz-un əməkdaşı Andre Gillioz tərəfindən yaradılıb. Doqquz il sonra – 2007-ci ildə Maqda və Xaled Salemlər Gilliozla birgə Clelia Assets Corp. şirkətinin ortağına çevriliblər. Misirdə hökumət dəyişəndən sonra 2011-ci ilin mayında şirkətdə Maqda və Xaled Salemlərin payları iki Azərbaycan vətəndaşı – Firidun Göyüşov və Sadık Ercanın adına keçirilib.

**ƏLİ EVSENİN "MİLYONÇU" "VARİSLƏRİ"**

Firidun Malı oğlu Göyüşov maliyyəçidir. Auditorlar assosiasiyasının saytındakı məlumata görə, müstəqil auditor kimi fəaliyyət göstərir, daha bir audit firmasında departament rəhbəridir. Amma onun əsas fəaliyyəti Əli Evsenin biznes holdinqinin – Evsen Groupun vitse-prezidenti vəzifəsi ilə bağlıdır. Sadık Ercan da Evsen Groupun vitse-prezidenti olub. Amma şirkətin işçiləri Ercanın bir müddət əvvəl Evsen Groupdan ayrıldığını bildirirlər. Azərbaycanda biznesə hələ 1990-cı illərin əvvəllərində Dubaydan konteyner vurmaqla başlayan Əli Evsen sonra Star taxi şirkətini, "Elit" Ticarət Mərkəzini, Şamaxıda soyuducu, kondisioner və məişət texnikası istehsalı üzrə zavodları, A-lizinq şirkətini, "Azsamand" avtomobilləri istehsalı xəttini və sair biznes qurumlarını yaradaraq Evsen Groupa birləşdirib. Mətbuatın yazdığına görə, 2008-ci ildə Əli Evsen Azərbaycan hökuməti ilə problemləri yarandıqdan sonra ölkədəki biznesini satmağa başlayıb.

Elə həmin ildə Əli Evsen Albaniyanın Albanian Airlines və Fransanın Eagle Aviation şirkətlərini alıb. İspaniya polisinin həbs üçün əsas olaraq irəli sürdüyü ittiham aktındakı iddialar doğrudursa, Əli Evsen Mübarəkin sağ əlinin biznesinə də elə 2008-ci ildə şərik olub. Azərbaycan kommersiya qurumlarının dövlət reyestrindəki sənədlər isə Evsen ailəsinin Azərbaycandakı biznesinin 2008-ci ildən sonra maraqlı inkişaf istiqamətini göstərir. 2008-ci ilin aprelində Evsen Group-un əsas mərkəzi - "Elite" Ticarət Mərkəzinin də yerləşdiyi ünvanda nizamnamə kapitalı nə az, nə çox, 10 milyon dollar olan yeni bir şirkət - Elite Construction şirkəti qeydiyyata alınır. Yeni şirkətin təsisçisi Tixonov Artyom Gennadiyeviç Əli Evsenin qaynıdır.

Kommersiya şirkətlərinin dövlət reyestrində Artyom Tixonovun qardaşı Yevgeniy Tixonovun da adına rast gəlirik. 2011-ci ilin oktyabrında Əli Evsenin Azərbaycandakı ilk bizneslərindən biri – Star Taksi şirkətinin Yasamal, Nərimanov və Sabunçu qollarının hüquqi varisliyi yeni şirkətə keçib. Yeni təsisçilər arasında həm Yevgeniy Tixonovun, həm də Firidun Göyüşovun adları var.

İspaniya polisi Mübarək dövrünün Misiri ilə Əli Evsenin Azərbaycandakı biznesinin əlaqələrini araşdırır. Polis istintaqın gedişatı ilə bağlı hər hansı məlumat verməkdən imtina edib. Əli Evsenin özünə, Evsen Group və Firidun Göyüşova email, telefon və "Facebook" sosial şəbəkəsi vasitəsilə edilən müraciətlər cavabsız qalıb. Jurnalist təhqiqatı nəticəsində ortaya çıxan faktların istintaqın istiqamətini necə dəyişəcəyi, eləcə də Azərbaycan hüquq-mühafizə orqanlarının istintaqda iştirak edib-etmədiyi bəlli deyil. Hələ ki, bəlli olan korrupsiya hesabına qazanılan pulların ağardılması üçün ofşor şirkətlərdən istifadə olunması və bu şəbəkənin sərhəd tanımamasıdır.

***Xədicə İsmayılova, Paul Radu, Mihai Munteanu***




**Dəyərli oxucular!** AzadlıqRadiosunun korrupsiya halları ilə bağlı maraqlı araşdırmalarını, xəbər və reportajlarını **AzadliqRadiosu.az** saytında **"Korrupsiometr"** bölümündə oxuyun. Səs yazılarını dinləyin, videolara baxın.

# Ross Wilson: “Ərəb yazı başqa hökumətlərə xatırladır ki..."



Ross Wilson

**Amerikanın Azərbaycan və Türkiyədəki keçmiş səfiri, hazırda isə “Atlantika Şurası”nda Dinu Patriciu Eurasia Mərkəzinin direktoru kimi çalışan Ross Wilson AzadlıqRadiosuna müsahibə verib. Keçmiş səfir qeyd edir ki, Azərbaycan korrupsiya ilə mübarizədə Gürcüstandan nümunələr götürə bilər.**

*- Amerika və Azərbaycan arasındakı münasibətlərin indiki durumunu necə qiymətləndirirsiniz? Azərbaycan bir tərəfdən NATO-nun Əfqanıstandakı missiyasına dəstək verir. Digər tərəfdən isə insan haqları ilə bağlı Vaşinqtonun tənqidlərini eşitmək istəmir. Bundan başqa, ABŞ-da nüvə silahının yayılmaması ilə bağlı konfransa Ermənistan prezidenti dəvət aldı, Azərbaycan prezidenti isə yox. Siz Amerika və Azərbaycan arasındakı münasibətləri necə görürsüz?*

*İndi mediada belə fərziyələr səslənir ki, ABŞ, yaxud İsrail İrana zərbələr endirə bilər. Əgər bu, baş verərsə, Azərbaycan ABŞ və İsrail kimi tərəfdaşlarından hansı təhlükəsizlik təminatı ala bilər?*

- Məncə, İrana tezliklə zərbə endiriləcəyi haqda yazılanlar daha çox medianın özünün ortaya atdığı fərziyələrdir. ABŞ-da və müəyyən qədər də İsraildə müşahidə etdiyim budur ki, belə zərbələrin çox ağır itkilərə yol açacağı və heç bir halda problemi həll etməyəcəyi başa düşülür. Lakin Vaşinqtonda heç bir variant masanın üstündən götürülməyib. İsraildə də həmçinin. İsrail bizim kimi İranın nüvə silahı əldə etmək perspektivindən olduqca narahatdır. Mənim müşahidələrim isə budur ki, siyasi qərar verənlər hərbi yolun seçilməsi ehtimallından çox narahatdırlar. O ki qaldı Azərbaycanın bu məsələdə hansı duruma düşəcəyinə, əgər məsələ deyilən həddə çatarsa, müəyyən məqamda bu barədə danışıqlar aparıla bilər, çünki bu, təkcə Azərbaycan üçün yox, bir çox ölkələr üçün çətin vəziyyət yarada bilər və onlar müəyyən təminatlar istəyə bilərlər.

*- “Transparency İnternational” təşkilatı Azərbaycanda korrupsiyanın dərin kök atdığını bildirir. Sizcə, korrupsiyanın qarşısını almaq üçün nə kimi işlər görmək olar?*

- Mən Azərbaycanda səfir olanda da korrupsiya orada problem idi. Məndən əvvəl də belə idi, belə görünür ki, məndən sonrakı illərdə də belə olub. Bu məsələ təkcə “Transparency İnternational”in yox, bəzi başqa təşkilatların hesabatlarında da əksini tapıb. Bu sahədə ölçülər götürmüş və konkret nəticələr əldə etmiş ölkələr var. Bundan ötrü rəhbərliyin iradəsi və bütün cəmiyyət boyu göstərilən cəhdlər lazımdır. Məsələn, qonşu Gürcüstan bu sahədə yetərincə uğurlara imza atıb. Dostları Azərbaycanın da bundan nümunə götürməsini istərdi.

*- Sizcə, bu, demokratik islahatların zəifliyi ilə bağlıdır? Sizcə, islahatların zəifliyi Amerika-Azərbaycan əməkdaşlığına zərər vururmu, yoxsa bunun elə bir təsiri yoxdur?*

- Əlbəttə ki, demokratiya və insan haqları məsələləri Amerika-Azərbaycan əlaqələrində həmişə mühüm komponent olub. Mən Amerika rəsmilərinin bu məsələdə Azərbaycan rəhbərliyi ilə kontaktlar zamanı necə inadcıl olduğunu görmüşəm. Amma onlar eyni zamanda bizim üçün vacib olan başqa məsələləri də müzakirə ediblər. Məsələn, Əfqanıstan missiyasına dəstək, terroçuluğa qarşı mübarizə, enerji əməkdaşlığı, ümumi iqtisadi inkişaf və s. Mən Bakıda səfir olanda belə idi. Ümid edirəm ki bu belə də davam edir.

*- Belə fikirlər də səslənir ki, ərəb dünyasında baş vermiş inqilablar Mərkəzi Asiyanın başqa ölkələrində də təkrarlana bilər. Bu haqda sizin də fikrinizi bilmək maraqlı olardı...*

- Əvvəla, ərəb dünyasında baş verənlərin başqa regionlarda da təkrarlana biləcəyi, yaxud mütləq təkrarlanacağı haqda ehtimalllar səsləndirmək, bu məsələdə ümumiləşdirmələr aparmaq çox çətin, həmçinin yanlış olardı. Hər bir ərəb ölkəsinin özünəməxsus cəmiyyəti var.

Şərqə, qərbə, şimala, yaxud cənuba getdikcə, cəmiyyətlərin daha çox yerli və özünəməxsus cəhətləri özünü göstərir. İkincisi, ərəb yazı başqa ölkələrin hökumətlərinə xatırladır ki, xalqın iradəsini nəzərə almaq, ölkəni bu prinsiplə idarə etmək, insanlara iqtisadi və sosial imkanlar açmaq lazımdır. İnsanlar əmin olmalıdırlar ki, hökumət onlar üçün belə imkanları yaradır və həyat getdikcə yaxşılaşacaq. Ərəb inqilablarına məhz o faktor səbəb oldu ki, insanlar cəmiyyətdə dəyişikliklərin baş verəcəyinə ümidlərini itirmişdilər. Məncə, Amerika hökumətinin də Azərbaycanla bağlı prioriteti o olmalıdır ki, yerli hökumətlə çalışaraq insanların daha yaxşı yaşaması, onların hüquq və azadlıqlarının təmin edilməsi, beləliklə də ölkədə uzunmüddətli stabilliyin qorunmasına xidmət etsin. Bu həm bizim, həm də ümumilikdə regionun mənafelərinə uyğundur.

**Müsahibənin tam mətnini AzadliqRadiosu.az saytından oxuya bilərsiniz.**




Ən aktual, ən qaynar müzakirələr həftənin hər iş günü AzadlıqRadiosunun efirində. **Saat 17-dən 19-dək**. **AzadliqRadiosu.az** saytından verilişə qulaq asa və ya baxa bilərsiniz. Geciksəniz, AzadliqRadiosu.az saytında səs arxivindən verilişlərə sonradan da qulaq asa bilərsiniz.

Veriliş zamanı suallarınızı verin:
SMS: (+994 50 744 10 17)
Telefon: 436 – 77 - 41
Elektron ünvan:
efir@azadliqradiosu.az

# "Mənə atəş açırlar"


İlham Əliyev İsveçrədə konfransda, 29.01.2009

**Əsasında populyar film çəkilmiş bir məşhur komediya əsəri var – Catch-22. Əsərin qəhrəmanı Amerika hərbi təyyarəçisi John Yossariandır. 1943-cü ildə İtaliyada yerləşmiş eskadriliyada xidmət edir. Əsərə görə Yossarian qəribə bir psixoloji problem yaşayır. Ona elə gəlir ki, hamı onu öldürmək istəyir. Sübut üçün də uzağa getmir: "Mənə atəş açırlar!" – deyir. Ona bildirirlər ki, müharibədir, sən də alman təyyarələri ilə döyüşə girən bir Amerika təyyarəçisisən. "Bəs onda niyə mənə atəş açırlar?" – soruşur. Yenə ona deyirlər, çünki alman hərbçiləri bütün amerikalılara atəş açırlar.**

"Fərqi nədir?" - Yossarian hesab edir ki, bütün İkinci Dünya müharibəsi bir oyundur ki, axırda onu öldürsünlər. Ona atəş açan düşmən tərəf də məhz onu öldürməyə çalışır. Onu hərbi tapşırığa göndərən komandanlıq da eyni işi görür. Yossarian üçün bütün olaylar şəxsi xarakter daşıyır. Bir dəfə də ağlına gətirmir ki, ona atəş açırlar, çünki müharibə gedir, o da qarşıduran tərəflərdən biridir.

Prezident İlham Əliyevin Münhen Təhlükəsizlik Konfransındakı çıxışına baxırdım. Almaniya Xarici Siyasət və Təhlükəsizlik İnstitutunun direktoru Volker Perthesin naqolay bir sualı və prezident İlham Əliyevin həmin suala cavabı oxşar bir psixoloji tablo yaratdı.

**ALMAN TƏHLİLÇİ NƏYƏ QAYĞILI İDİ?**

Almaniyada kifayət qədər ciddi bir siyasi instituta rəhbərlik edən Volker Perthesin sualı bu idi ki, baş verən ərəb inqilabları fonunda Hüsnü Mübarək dövrünü xatırladan indiki Azərbaycana sərmayə yatırmaq nə dərəcədə təhlükəlidir? Azərbaycan prezidentinin də bu suala gözlənilən cavabı, təbii ki, ondan ibarət olmalı idi ki, Azərbaycanda ciddi siyasi islahatlar gedir, inqilab gözlənilmir və s.

Prezident Əliyev həmin cavabı verir, amma belə: "Kimsə Azərbaycanda Misirdə baş verən hadisələr kimi nəsə görmək istəyirsə, sizi əmin edirəm ki, nəyisə arzu edib-etməməyinizdən asılı olmayaraq, bunu görməyəcəksiniz". Təbii ki, prezidentin cavabı təkcə bu cümlədən ibarət olmur. Bəzi statistik rəqəmlər sadalanır, deyilir ki, Azərbaycanda azad mətbuat və hətta azad internet var.

Amma diqqəti məhz sitat gətirilən cümləyə cəlb etmək istəyirəm. Bilmirəm ki, orta statistik azərbaycanlı və prezident Əliyev bu bəyanatı necə təfsir edər, amma kənardan bu fikir emosional tutumlu bir cümlə kimi səslənir: "Arzunuz gözünüzdə qalacaq, görməyəcəksiniz o arzuladığınız inqilabı!" Kimə deyilir bu fikir? Alman institutunun prezidentinə. Bu, birinci dəfə deyil ki, Azərbaycan rəsmiləri, o cümlədən prezident İlham Əliyev, dünya dövlətləri və beynəlxalq təşkilat nümayəndələrinə belə diş qıcıdıblar.

Müxtəlif vaxtlarda ABŞ Dövlət Departamenti, Böyük Britaniya hökuməti, Almaniya və Fransa hökumətləri Azərbaycanda aranı qarışdırmaq istəyən "qara qüvvələr" kimi tənqid atəşinə tutulublar. "Freedom House", "Amnesty International", "Sərhədsiz Reportyorlar", "Human Rights Watch", hətta Avropa Şurası və ATƏT strukturlarının bəyanatlarına da oxşar reaksiyalar verilib.

**BAKI ÜÇÜN DƏ HAMI SÖZÜ BİR YERƏ QOYUB?**

Qəribə bir mənzərə alınır. Belə çıxır ki, bütün dünya sözü bir yerə qoyub ki, Azərbaycanı qaralasın, onun təmiz adına ləkə yaxsın, ona şər atsın, onun barəsində böhtanlar səsləndirsin. Azərbaycanın isə öz həqiqəti var, heç kimin başa düşmədiyi, qəbul etmədiyi, yalnız Bakı və Naxçıvanda dövlət rəsmilərinin başa düşdüyü bir həqiqət. Azərbaycanın dövlət başçısı Münhen Konfransında belə bir psixoloji portret cızdı-özü və təmsil etdiyi hökumət üçün.

Reallıq isə elə də mürəkkəb deyil. Azərbaycanda qeyri-azad bir siyasi sistem var. Bu sistem dünyanın aparıcı dövlətlərinin paylaşdığı dəyərlərlə bir araya sığmır. Üstəlik, müasir dövrdə bu sistemlərin həm də qeyri-sabit olduğu üzə çıxıb. Buna görə də Qərb mediası, qeyri-hökumət təşkilatları, bəzən isə dövlət qurumları ara-sıra Azərbaycanı və Azərbaycan kimi onlarla diktaturanı buynuzlayırlar. Bu dinamikada şəxsi qərəz axtarmaq olar və hətta tapmaq da olar, necə ki, Catch-22-nin qəhrəmanı John Yossarian axtarırdı və tapırdı. Amma bu qənaətlər atəşləri dayandırmayacaq. Çünki həmin qənaətlər açılan atəşləri yaradan səbəb deyil və deməli, onu susduran səbəb də ola bilməz.

***Qorxmaz Əsgərov (Vaşinqton)***

# AzadlıqFM-in vaxtı dəyişdi

Bu maraqlı verilişin vaxtı dəyişdi: indi hər həftənin cümə axşamları **14:00-15:00** arasında "Facebook" məkanında baş verən maraqlı olayların müzakirəsinə qa qatıla bilərsiniz. "Facebook"da xüsusi fəallığı ilə fərqlənən şəxslər verilişə dəvət edilir. Veriliş eyni vaxtda AzadlıqRadiosununFacebook Fane Pageində də yayımlanır ki, "Facebook" istifadəçiləri canlı olaraq şərhlər yaza bilsinlər. AzadlıqFM-in arxiv səhifəsi də var.



# Hökumət evsizlərə sığınacaq qurduğunu deyir, amma...



**Bu həftə Bakıda və Gəncədə 3 nəfər donvurmadan öldü. Bu, rəsmi məlumatdır. Daha bir rəsmi məlumat Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Füzuli Ələkbərovdan gəldi. O, fevralın 10-da jurnalistlərlə söhbətdə dedi ki, daimi yaşayış yeri olmayanlar (küçədə yaşayan evsizlər) üçün sığınacaqlar yaradılıb. O, jurnalistlərə sığınacaqlar qurulan ünvanları da deyib: "Binə" və "Sədərək" ticarət mərkəzlərinin, «8-ci kilometr bazarı»nın, Dəmiryolu Vağzalının yaxınlığı.**

**TAPMADIĞIMIZ SIĞINACAQ**

Dəmiryol Vağzalına yollanırıq. Adətən evsiz-eşiksizlər burda lövbər salırlar. Bu ərazidə səyyar sığınacaq deyə gözümüzə heç nə dəymir. Vağzal polisləri də, buranın əməkdaşları da, hətta «28 May» metrostansiyasının işçiləri də yaxınlıqda sığınacaq yaradılmasından xəbərsizdirlər. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə zəng vururuq. İctimaiyyətlə əlaqələr şöbəsinin müdir müavini İlham Məmmədov sığınacaqların fərqli ünvanlarda yerləşdiyini deyir. Ən yaxını Süleyman Rüstəm 69-dur – Nəsimi bazarının yaxınlığında.

Soraqlaşa-soraqlaşa ünvanı tapırıq. Gözümüzə inanmırıq. Burda nə sığınacaq var, nə də buna bənzər bir şey.

**«FƏHLƏ ÇATIŞMAZLIĞI VAR»**

Nazirliyin əməkdaşlarına yaxınlaşırıq. Vəzifəsini deməyən Hüseyn Məmmədovla söhbətə başlayırıq:

- Çadır gəlib hələ çıxmayıb. Gözləyirik. Fəhlə çatışmazlığı var. Bizə deyiblər ki, 10-15 dəqiqəyə qoşmalıdırlar.

- Nə qədər adam yerləşəcək?

- İki nəfərdi. Biri Süleyman Rüstəmdə yaşayır, o biri Səməd Vurğunda. Yerləri təsbit olunub...

**10-15 DƏQİQƏ KEÇDİ, AMMA...**

Söhbət zamanı nazirlik işçilərindən Nəsimi rayonundan olan həmin 2 nəfərin hazırda harda qalmasını xəbər alırıq. Əməkdaşlar çiyinlərini çəkirlər, «biz çadırı qurmağa təhkimik» deyirlər. Ancaq onu da öyrənirik ki, kimsəsizləri, sığınacağa ehtiyacı olanları yerli icra orqanları müəyyənləşdirəcək.

Çadırları isə dediklərinə görə, xeyir-şər məclislərini yola verən iş adamlarından götürüblər. Yəqin buna görə də günün sonuna kimi çadır gəlib çıxmadı...

Beləliklə, çadırın 10-15 dəqiqəyə qurulacağı deyildi, «gözləyək» dedik. 15 dəqiqə bitdi, 30 dəqiqə keçdi, saat tamam oldu, amma çadır gəlmədi ki, gəlmədi. Hava qaralırdı, adıçəkilən nazirliyin əməkdaşları da vaxtaşırı əraziyə baş çəkir, sonra harasa çəkilirdilər. Onlardan biri bizə Əhmədlidəki sığınacağa getməyi təklif edir: «Hazırdır, içində yaşayan da var».

Amma gecdir və redaksiyaya qayıtmaq zamanıdır.

**«HÖKUMƏT YUBANIB»**

«Hökumət sığınacaq yaratmaqda yubanıb». Bunu da Azərbaycan Sosial İşçilər Birliyinin sədri Aytəkin Hüseynli deyir: «Bu problemdən əziyyət çəkənlərin sayı kifayət qədərdir. Ona görə gecikmişik. Amma təqdirəlayiq haldır ki, başlayıblar buna».

***Şahnaz Bəylərqızı***

**"Qaynar Xətt"** dinləyici şikayətləri əsasında hazırlanan verilişdir. Sizin də şikayətiniz və ya məlumatınız varsa, qaynar xəttə zəng edin. **Telefon 436 77 41.** Bizə zəng edənlər mütləq koordinatlarını (ad, familiyasını və telefonunu) saxlamalıdır. **AzadliqRadiosu.az** saytına daxil olmaqla da verilişlə əlaqə saxlaya bilərsiniz.

Aparıcı Esmira Cavadova.

E-mail: esmer_alda@mail.ru




## Rejissorumuzun filmi Berlinaledə

Berlin Beynəlxalq Film Festivalı, nəhayət ki, başlandı. Festival (Berlinale) fevralın 10-da "Les Adieux A La Reine" filminin göstərilməsiylə başlayıb. Qalada festivalın jüri sədri Mike Leigh və jüri üzvləri, aktyor və aktrisalar qırmızı xalıya çıxıblar. Jüri üzvlərinin arasında iranlı rejissor Asğar Farhadi-nin, aktrisaların arasında türk əsilli Sibel Kekillinin də olduğu bildirilir.

Həmçinin açılışda göstərilən filmin rejissoru Benoit Jacquot-un da qırmızı xalıya çıxdığı bildirilir. Festivalın "Panorama" bölümünün açılış filmi rejissorluğunu Umut Dağın etdiyi Avstriya filmi— "Kuma" olub. 7 həftəyə tamamlanan film Vyana ilə Ərzurumun bir kəndində çəkilib. Türk mediası yarışma bölümündə olmasa da, digər bölmələrdə iki türk filminin olduğunu yazır.

9-19 fevral tarixləri arasında olacaq 62-ci Berlin film festivalında 67 ölkədən 395 film göstəriləcək. Onların arasında azərbaycanlı Tahir Əliyevin prodüserlik etdiyi "Gözləyən qadın" filmi də var.

***Sevda İsmayıllı***



Elza İbrahimova

## Azərbaycanın ən gözəl bəstəkarlarından biri vəfat etdi

Azərbaycanın əməkdar incəsənət xadimi, bəstəkar Elza İbrahimova uzun sürən xəstəlikdən sonra 74 yaşında vəfat edib. E. İbrahimova bir müddət əvvəl ensefalopatiya diaqnozu (beyin-qan dövranının pozulması) ilə Kliniki Tibbi Mərkəzə yerləşdirilmişdi. Elza xanım R.Heydər, B.Vahabzadə, O.Qoçulu, V.Əziz, V.Səmədoğlu, R.Əfəndiyeva və başqa şairlərin sözlərinə mahnı və romanslar bəstələyib.

Onun bəstələdiyi mahnılar içində Akif İslamzadənin ifa etdiyi məşhur "Qurban verərdim", Flora Kərimovanın oxuduğu ondan da məşhur "Bilməzdim" kimi mahnılar da var.

# Rəsmi nikah olmadan kəbin kəsilməyəcək


Kəbin mərasimi

*Azərbaycanda kəbini hər yoldan ötən din adamı deyil, ancaq məscid axundu kəsə bilər. Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) şöbə müdiri Hacı Mirəziz Seyidzadə bildirir ki, yalnız QMİ-nin vəsiqə verdiyi axundların kəbin kəsməyə səlahiyyətləri var: "İndi kimlərsə gizlində hardasa kəbin kəsirlər. Əgər sübuta yetirilsə ki, hansısa oğlanla-qızın kəbinini Qafqaz Müsəlmanları İdarəsinin vəsiqə vermədiyi şəxslər kəsib, onlar, əlbəttə, məsuliyyətə cəlb olunacaqlar. Çünki İdarə həmin səlahiyyəti ancaq bölgələrdə olan bəzi axundlara verib".*

Hacı Mirəziz Seyidzadənin sözlərinə görə, Şeyxülislam Hacı Allahşükür Paşazadənin xüsusi tapşırığına əsasən, heç bir axund rəsmi nikahı olmayanlara kəbin kəsə bilməz: "Biz hətta kəbin kağızında "ZAQS" sənədinin nömrəsi üçün yer də qoymuşuq. Axund həmin sənədin nömrəsini kəbin kağızına köçürməlidir. Hansı tarixdə kəbin kəsilib, o da yazılmalıdır. Belə bir tapşırıqdan sonra qeyri-qanuni kəbin kəsilərsə, axund məsuliyyətə cəlb olunacaq".

*QMİ-nin şöbə müdiri onu da bildirib ki, hər bir valideyn dövlətin qanununu tanımalı, qızını 18 yaşından tez ərə verməkdən çəkinməlidir:* "Əgər kimsə qızı qaçırıbsa, hətta razılıqla bunu ediblərsə, yenə də məsuliyyəti onların özləri daşıyırlar. Istənilən halda, əgər dövlət nikahı yoxdursa, heç bir molla onlara kəbin kəsməyəcək. Gizli kəbin üçün biz məsuliyyət daşımırıq".

## Chevrolet-də gəzməyin, üstündə xaç var

Misirin dini liderlərindən biri yeni fətva verib. Bu dəfə avtomobillərlə əlaqəli. Dini fərmana əsasən, Misir dindarlarına "Chevrolet" markalı avtomobildə gəzmək qadağan edilir. "Chevrolet"in qadağan olunmasının əsas səbəbi onun loqotipi ilə bağlıdır. Fətvada iddia olunur ki, bu şirkətin loqosu xristian xaçı şəklində olduğundan, müsəlmanlar onda gəzməməlidirlər. Lakin bu tələb yerli ictimaiyyət tərəfindən təəccüblə qarşılanıb. Tanınmış teleaparıcı Amr Adeeb öz proqramında bu fətvanı tənqid edib, onu imzalayan ruhaniyə istehza ilə xitam edib: "Chevrolet" markası 100 ildir ki, mövcuddur. Siz ordakı xaçı indi görmüsüz?"

Aparıcı onu da deyib ki, indi Misirdə hansı avtomobili seçib-seçməməkdən də vacib, həll olunması lazım olan problemlər var.

# Milli Məclisin deputatı iclas vaxtı azan verib

Misir parlamentində hər kəsi təəccübləndirən hadisə baş verib. İclasın ortasında sələfilərin partiyasının nümayəndəsi Mamdouh İsmail ayağa qalxıb, əllərini qulağına dirəyərək azan oxumağa başlayıb. Bu hal Misir Milli Məclisinin spikeri Saad al-Katatnyni özündən çıxardıb. O, deputatı saxlamağa cəhd göstərsə də, İsmail azanı sona çatdırıb.

**HƏR KƏS EYNİ DƏRƏCƏDƏ MÜSƏLMANDIR**

*Spiker bu hərəkətin deputat nizamnaməsinə zidd olduğunu xatırladıb:* "Bizi şantaj etməyin, siz bizdən artıq


Misir parlamentinin sələfi deputatları

müsəlman deyilsiniz. İclas zalı mühüm dövlət əhəmiyyətli məsələlərin müzakirəsi üçün nəzərdə tutulub. Dualar üçün parlament ərazisində məscid var, ora gedə bilərsiniz".

İsmail azana davam etdiyindən, parlament sədri onun mikrofonunu söndürüb və iclasın sonunadək deputatın danışmasına icazə verməyib.


20-ci əsrin əvvəlində İranda zorxana

# Maştağalı pəhləvanı kim yıxdı?

## Günün gülməcəsi

*Ötən əsrin əvvəllərində Bakıda Altıaylıq adında bir pəhləvan yaşayırmış. Əsl adı Əbdüləli olan Altıaylıq Maştağadanmış. Bu adı ona 6 aylıq doğulduğu üçün veriblərmiş.*

...Hə, Altıaylıq çox keçmir ki, lap məşhurlaşır. Hamının kürəyini yerə vurur. Şöhrəti kənarlara da yayılır. Bir dəfə lap nağıllardakına bənzər bir əhvalat olur. Altıaylıq bir neçə maştağalı dostuyla Kərbəladan, İmam Hüseyn ziyarətindən qayıdırmış. Tehrandan keçərkən xəbər tutur ki, bu gün Şah sarayının qarşısında, şahın iştirakilə pəhləvanlar güləşəcək. Altıaylıq gəlir ora. Yarış bitir. Bir pəhləvan hamını yıxır və üzünü tutur camaata ki, aranızdan kim istəyir, gəlsin güləşək. Altıaylıq bu lovğalığa dözməyib meydana çıxmaq istəyir.

Şah deyir:

- Oğlan, bu, hesabdan deyil, təzədən güləşin!

Altıaylıq yenə girir meydana, ikinci dəfə pəhləvanın kürəyini vurur yerə... Şahdan soruşur:

- Şahım, bu da hesabdan deyil?

Şah bu dəfə dinmir. Altıaylığı yanına çağırıb ona bir ovuc əncir qurusu verib deyir:

- Al, ye, Allah qüvvətini daha da artıq eylər!

Altıaylıq şaha deyir:

- Şahım! Mən Bakıdanam. Üç ay yayı bu əncirin yaşını yeyirəm. Qurusu nəyimə lazım?!..

Əslində gülməcəni burada bitirməliydim. Amma Altıaylıq pəhləvanın sonu da elə gülməcəlikdir.

Deyilənə görə, Altıaylıq 63 yaşında dünyadan köçür və Maştağada dəfn olunur. Dəfnində Axund Mir Qəni deyir:

- 63 ildə heç kəs onun kürəyini yerə vura bilməmişdi. Nəhayət, Allahın əmri ilə Əzrail onun kürəyini yerə vurdu...

***Sevda İsmayıllı***

# 31 yaşlı azərbaycanlının icad etdiyi uçan aparat


Rauf Quliyevin icad etdiyi qurğu

«2006-2007-ci ildə film çəkərkən həm helikopter, həm də uçaq lazım idi. Bunlar da çox baha başa gəlirdi, həm də istənilən kadrları tuta bilmirdim. Uçaq həm sürətlə, həm də səslə uçduğundan alınmırdı. Çox fikirləşdim necə edim ki, ucuz başa gələn, istədiyim kadrları günün istənilən vaxtında çəkə bilim. Kameramı istədiyim hündürlüyə qaldırıb rahatlıqla çəkiliş edə bilim».

**DÜNYANIN MÜXTƏLİF ÖLKƏLƏRİNDƏN SİFARİŞLƏR GƏLİR**

Rauf Quliyev icad etdiyi qurğu haqda danışır. «Droidair» adlanan bu qurğu səkkiz pərdən ibarətdir, ortasına foto-video kamera yerləşdirib. Səmaya qaldırmaq və görüntülər çəkmək olur. Rauf deyir ki, belə bir aparat ideyası 2006-cı ildə yaranıb. 2011-ci ildən isə aparat satışdadır. Almaniya, Hollandiya, İspaniya, İtaliya və digər ölkələrdən sifarişlər alır. Aparatın qiyməti 5 min manatdan başlayır, qaldıracağı ağırlıqdan asılı olaraq dəyişir: «Aparat pultla vizual idarə olunur. İdarə ya videomonitorla, ya da video eynəklə canlı yayımda aparılır».

**İDEYANI REALLAŞDIRMAĞA UNİVERSİTET DƏSTƏK OLUB**

Rauf Quliyev 1980-ci ildə Bakıda anadan olub. 2002-ci ildə Milli Aviasiya Akademiyasını bitirib. 2006-cı ildə Almaniyanın Vürzburg Universitetində Avropa hüququ üzrə magistr dərəcəsi alıb və həmin universitetdə elmi müvəkkil işləməyə başlayıb: «Hər hansı bir təcrübə həyata keçirməkdə Vürzburg və Fizika İnformatika Universitetləri hər cür dəstək olurlar. Bütün zəruri avadanlıq və hissəciklər universitet tərəfindən alınır».


Rauf Quliyev

**YENİ LAYİHƏ...**

Rauf Quliyev hazırda Frauenhofer İnstitutu və Bayreuth Universiteti ilə bərabər yeni layihə üzərində çalışır. Yeni layihəsi yüklərin boşaldılması və yerləşdirilməsini avtomatik icra edəcək aparatlardır: «Pultdan istifadə olunmamaq şərtilə proqram vasitəsilə bu aparatlar istənilən əşyanı qaldırıb istənilən nöqtəyə daşıyacaq. Yəni artıq insanların əməyindən istifadə olunmayacaq».

**BAKIDA ELEKTRİK MAŞINLAR...**

Rauf Quliyev yeni ixtirasını da patenləşdirmək üçün Almaniyanın Patent bürosuna müraciət edib. Əsas işini elektrik üzərində görən Raufun Azərbaycanla bağlı arzuları var. Ekologiyaya dəyən ziyanın qarşısını almaq üçün Azərbaycanda elektrik maşınları istehsal etməyi arzulayır. Amma deyir Azərbaycanda həmin cihaz üçün ona lazım olan kiçik hissələr və avadanlıqları əldə etmək mümkün olmadığından hələlik nə Almaniyada qurduğu işi Bakıya gətirə bilir, nə də Azərbaycanla bağlı arzularını reallaşdıra.

***Nüşabə Fətullayeva***

# AzadlıqRadiosunda verilişlər:

| | |
|---|---|
| 8:00 | Qafqaz Qovşağı /Azadlıq Bölgələrdə / Kontekst / Şəffaflıq / Overtime |
| 9:00 | İz / Şəffaflıq / İşdən sonra |
| 10:05 | Qərb musiqisi |
| 11:00 | Xəbərlər |
| 11:05 | Qərb musiqisi |
| 12:00 | Xəbərlər |
| 12:05 | Qafqaz Qovşağı / Qaynar Xətt / Can Bakı / Iz / Şəffaflıq / 14-24 / Şəffaflıq / Azadlıq Bölgələrdə |
| 13:00 | Xəbərlər |
| 13:05 | Qərb musiqisi |
| 14:00 | Xəbərlər |
| 14:05 | Overtime / Kontekst / Qaynar Xətt / Can Bakı / Pen club / Overtime / Iz / Şəffaflıq |
| 15:00 | Xəbərlər |
| 15:05 | Qərb musiqisi / Qaynar Xətt / Can Bakı |
| 15:30 | Amerikanın Səsi / İz |
| 16:00 | Xəbərlər |
| 16:05 | Qərb musiqisi / İşdən sonra |
| 17:00 | Xəbərlər |
| 17:05 | İşdən sonra |
| 18:00 | Xəbərlər |
| 18:05 | İşdən sonra / Pen Klub |
| 19:00 | Qərb musiqisi |
| 20:00 | Xəbərlər |
| 20:05 | Kontekst / Azadlıq Bölgələrdə / Şəffaflıq / Qaynar Xətt / İslam və Demokratiya / 14-24 / İz |
| 20:30 | Amerikanın Səsi / Qafqaz Qovşağı / 14-24 |
| 21:00 | Qərb musiqisi |
| 22:00 | Xəbərlər |
| 22:05 | Kontekst / 14-24 / Şəffaflıq |
| 23:00 | Xəbərlər |
| 23:05 | Overtime / İşdən sonra / AzadlıqFM / Overtime |
| 00:00 - 8:00 | Amerikanın Səsi / Qərb musiqisi |

**Qeyd:** Kəsr xətti ilə verilmiş – eyni saatlara düşən verilişlər həftənin günlərindən asılı olaraq növbə ilə təkrar gedir...

# Simsiz teleqraf

## 97 dəqiqəyə gələn avtobus




***49 saylı marşrutdakı avtobusu adamlar düz 97 dəqiqədir gözləyir. Neftçilər Xəstəxanasının yanı. Yüklədi: Qar adam***

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:**

efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

## necə dinləməli...

24 saat

**Mobil telefonda canlı:** İndi 3G, GPRS və ya Wi Fi-la radiomuzu canlı dinləmək olur... Ətraflı: **AzadliqRadiosu.az**-da

# AzadliqRadiosu Facebook-da




**facebook.com/azadliqradiosu**

**Qaynar Xətt:** **436-77-41**

**Bizimlə əlaqə:**

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30

**E-mail:** efir@AzadliqRadiosu.az


Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Qanun" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tbilisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email: fdjurnal@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz